## Bakı Fransız liseyinin direktoru cənab Alain Mante ilə söhbət

Bu ilin sentyabr ayında Bakıda yeni lisey binasının açılışı oldu. 11 illik tədrisi fransız dilində olan Bakı-Fransız Liseyi 2013-cü ildən fəaliyyətə başlasa da yeni binasına bu il köçdü. Liseyi digərlərindən fərqləndirən bir cəhət də buranı bitirən şagirdlərin attestatının Fransanın Milli Təhsil Nazirliyinin standartlarına və tələblərinə uyğun olması və tanınmasıdır. Məktəbin məzunları öz seçimlərinə uyğun olaraq təhsillərini Fransanın istənilən ali təhsil müəssisəsinə müraciət edə bilərlər. Şagirdlərin seçim etdiyi ixtisas uyğun olub-olmadığı onların attestat qiymətlərinin nəticəsindən asılıdır.

İki ölkə arasında imzalanan sazişlə yaradılan liseyin tərkibində uşaq bağçası da fəaliyyət göstərir ki, bura iki yaşından yuxarı uşaqlar qəbul edilir. Biz də liseyin hazırkı fəaliyyəti və gələcək planları ilə tanış olmaq üçün bu təhsil müəssisəsinə yollanırıq.

Liseyin direktoru Alain Mante suallarımızı cavablandırmağa hazır olduğunu bildirir. Biz də ona təşəkkür edib müsahibəmizə başlayırıq.

***Əvvəlcə cənab Mante özü barədə qısa məlumat verir:***

- Fransanın Milli Təhsil Nazirliyinin əməkdaşıyam. İbtidai sinif müəllimi olmuşam. Problemli uşaqlara dərs demişəm. Məktəb psixoloqu diplomum var. Fransada və bir çox ölkələrdə xüsusi problemli uşaqlar üçün məktəblərdə direktor, Afrika ölkələrində pedaqoji müşavir olmuşam. Təhsilin və tədrisin təşkili ilə məşğul idim. Daha sonra yenidən Fransaya qayıtdım. Bu məktəb açılanda dedilər ki, sən bu məktəbin təhsilində böyük rol oynaya bilərsən. Biz madam Ronksanla (red: liseyin əvvəlki direktoru) birlikdə bu liseydə tədrisi təşkil etdik.

***Direktor barəsində informasiya aldıqdan sonra məktəbin fəaliyyətə başlaması və hazırkı işləri ilə bağlı söhbətə keçirik:***

Lisey Azərbaycanın birinci xanımının təklifi ilə yaradılıb. Əvvəl Bakı İstedadlar Təhsil Kompleksinin binasında fəaliyyət göstərirdik. Tədrisə cəmi 32 nəfərlə başlamışdıq. Onların 15-i bağça, 15-i ibtidai və 2-si isə lisey səviyyəsində idi. Liseyin hazırda yerləşdiyi binasının açılışı isə 2014-cü ilin sentyabrında ölkə başçısı və onun xanımının iştirakı ilə olub. Liseyimizdə fizika, kimya, İT laboratoriyaları var, İKT avadanlıqları ilə tam təmin olunmuşuq. Məktəbdə tədrislə Fransadan gəlmiş müəllimlər məşğul olur. Amma azərbaycanlı müəllimlər də var. Məktəbin ali idarəetmə orqanı İdarəetmə Komitəsidir. Komitənin sədri SOCAR-ın, sədr müavini Azərbaycan Respublikasının Təhsil Nazirliyi, xəzinədarı Heydər Əliyev Fondu, katibi Fransanın Azərbaycandakı səfirliyi və eyni zamanda Fransız Dünyəvi Missiyasının (MLF) nümayəndəsidir.

***- Müəllimlər işə hansı şərtlərlə götürülür?***

- Müxtəlif millətlərin nümayəndələri burada dərs deyir. Yeni binaya gəldikdən sonra azərbaycanlı müəllimlərlə də işləməyə başladıq. Çünki bu ildən şagirdlərin sayı iki dəfə artıb. Artıq 77 nəfər şagirdimiz var. Müəllimlərin də sayını artırmaq istəyirik. Yerli müəllimlər üçün bizim birinci şərtimiz onlar fransız dilini mükəmməl bilməlidir.

***Direktor bizi liseydə dərs deyən müəllimlərlə də tanış edir:***

- Bağçada dərs deyən müəllimlər Vüsalə Yusifova və Sofi Viyerdir. Sofi Viyerin həyat yoldaşı Aleksis Viyer hazırlıq qruplarında və ibtidai siniflərdə dərs deyir. Digər bir sinif müəllimimiz Gülər Həsənovadır. O, ikinci və üçüncü siniflərə birlikdə dərs deyir. Fatma Djenayah isə 4-cü və 5-ci siniflərdə tədrisi aparır. Yuxarı siniflərdə, yəni 6-11-ci siniflərdə şagirdlərin sayı az olduğundan onlara dərslər birləşdirilmiş bir qrupda keçirilir. Şagird sayı kifayət qədər olmadığı üçün hər fəndən ayrı-ayrı müəllim gətirmək olmur. 6-cı sinifdən yuxarılar distant (məsafədən) təhsil alırlar. Ona görə də lisey Distant təhsilin milli mərkəzi CNED (Fransa) ilə müqavilə əsasında elektron vasitələrlə tədrisi təşkil edir. Veronika Qayevskaya adlı müəllimimiz də bu prosesdə şagirdlərə yardım edir. Onun yardımçısı Fransada təhsil alan azərbaycanlı müəllim Elmira Əliyevadır. Biz yaxın zamanlarda Fransadan yeni müəllimlər də dəvət etməyi planlaşdırırıq.

***- Uşaqlar hansı kriteriyalarla seçilir?***

- Bu il seçim prosesi daha asan oldu. Fransız dilini zəif bilən uşaqlar da qəbul olundu. Çünki məndən əvvəlki direktor madam Ronksan xəstələndi. Seçim də iyul-avqust aylarında, onun xəstələndiyi vaxtda, yəni mən direktor təyin olunmamışdan əvvəl aparıldı. Köməkçi müəllim seçimi apardığı üçün dili zəif bilən uşaqları da qəbul edib. Məktəbə qəbul olan, lakin fransız dilini zəif bilən uşaqların dərslərini davam etdirmək üçün onlara intensiv və pulsuz fransız dili kursları keçirilir. Fransada təhsil almış azərbaycanlı müəllimimiz Elmira Əliyeva uşaqlara tapşırıqlarını başa salır. Bağça uşaqları və ibtidai siniflərdə dil öyrənməkdə problemimiz yoxdur. Onlar dili tez mənimsəyirlər. Daha böyük uşaqlarda isə problem yaşanır. Onlara fransız dilinə uyğunlaşmaq daha çətindir. Bundan başqa, 11 yaşından yuxarı, yəni lisey yaşındakı azərbaycanlı uşaqlara Azərbaycan dili və ədəbiyyatı, Azərbaycan tarixi və coğrafiyası fənləri də tədris olunur. Bu dərslər Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən təqdim olunmuş müəllimlər tərəfindən aparılır.

***- Liseydə təhsil almaq üçün illik ödəniş nə qədərdir?***

- Valideynlər ilk qeydiyyat üçün 500 manat ödəyirlər. Bağça üçün illik 5500 manat, ibtidai siniflər üçün 6000 manat, yuxarı siniflər üçün isə 7000 manat ödənilməlidir. Təhsil haqqını ödəməyən uşaqlar liseydən xaric olunur.

***- Uşaqlar liseydən kənarlaşdırıla bilər?***

- Keçən ildən etibarən məktəbin daxili qaydaları müəyyənləşdirilib. Bu qaydalarda uşağı məktəbdən çıxarmaq halları yoxdur. Məktəbə daxil olmaq istəyən hər hansı bir şagird imtahan verməlidir. Həmin imtahandan keçəndən sonra məktəbə yazıla bilər.

***- Fransa ilə mübadilə proqramı var?***

- Bu liseydəki təhsil Fransa təhsil sistemi ilə təxminən eynidir. Ona görə mübadilə proqramları yoxdur. Bu liseyi bitirmək üçün şagirdlər CNED-in proqramına uyğun olaraq imtahan verməli və həmin imtahandan keçməlidirlər. Burada müvəffəqiyyətlə imtahan verən şagird Fransanın istənilən universitetlərinə müraciət edə bilər.

***- Gələcək planlar nədir?***

- İlk növbədə uşaqların sayını artırmaqdır. Azərbaycanda işləyən fransız əsilli ailələrin uşaqlarını liseyə cəlb etmək istəyirik. Onlar da uşaqlarını bu məktəbə verə bilərlər. Fransızlar arasında bu məktəb barədə məlumatı olanlar var. Onlar öz uşaqlarının təhsilini burada davam etdirmək istəyirlər. Məsələn, Qətər və Qazaxıstandan zəng gəlmişdi. Valideyn Bakıda işləməyə qərar verib. Çünki burada fransızdilli məktəbin olduğunu öyrənib.

***Sonda direktorun Azərbaycan təhsilində aparılan islahatlar barədə məlumatı olub-olmadığını öyrənməyə çalışırıq:***

- Azərbaycan təhsili barədə az da olsa məlumatlıyam. Təhsil Nazirliyinin ciddi proqramları var. Bu ölkənin təhsil sistemi Fransa təhsil sistemindən fərqlidir. Azərbaycanda dili tez mənimsəyirlər.

***Cənab Mante Azərbaycan şagirdlərinin riyazi biliklərinin güclü olduğunu düşünür:***

- Azərbaycanlı şagirdlərin riyazi bilikləri çox yüksəkdir. Fransada daha yuxarı siniflərdə keçirilən məsələləri burada aşağı siniflərdə təhsil alan şagirdlər çox asanlıqla həll edirlər.

Söhbətin bu yerində qapı döyülür. Gənc azərbaycanlı müəllim valideynlərin liseydə direktoru gözlədiyini bildirir. Biz də artıq söhbətimizin yekunlaşdığını deyib, direktorla sağollaşırıq.

***"Azərbaycan müəllimi" qəzeti***